## - DEYİRLƏR Kİ, BİR OĞULU DOĞA BİLMƏZ İKİ ANA,
## ÇOX UZAĞA GETMƏYİN HEÇ, MƏN TİMSALAM BU GÜN ONA.

**ŞAMİL DƏLİDAĞ**

# BU DAHİ ŞƏXSİYYƏTİN VƏSİYYƏTİNDƏN BİR PARÇA:

Hər kürdə edirəm bunu vəsiyyət,
Meydana çıxsa da, bəd, qara niyyət,
Onlara verməyin siz əhəmiyyət
Hər vaxt sadiq olun Azərbaycana,
Doğma ana deyin həmişə ona.



## NƏRİMAN ƏYYUB

## ŞAMİL DƏLİDAĞ

Zığ kəndində dəfn olundu Dəlidağ,
Fəxri Xiyabana yaraşan kişi.
Haqsızlıq vətəndə tamam oldu ağ,
Xalqının yolunda çalışan kişi.

Ədalətsizliyə baxdım kövrəldim,
Çox dağlardan uca dağdı, Dəlidağ.
Bu dərdi yazmağa qərara gəldim,
Xalq yanında üzü ağdı, Dəlidağ.

Ayrıseçkiliklər xalqıma ləkə,
Ləkəli insanlar ucala bilməz.
Şamil çox ağırdı, bəlkə fil çəkə,
Haqsızlıqlar sınar, güc ola bilməz.

İki xalq dilində yaradan Şamil,
Poeziyamıza nələr vermədi?
Kəlbəcərdə yazıb yaratdı hər il,
Paxıllar onları niyə görmədi?

İllərlə işləyən cəfakeş Şamil,
Halalca haqqını düzgün almadı.
Onda dərya idi folklor dolu dil,
Vətən dərdi çəkdi, çox qocalmadı.

Sıxdı Vətən dərdi, sıxdı haqsızlıq,
Dözmədi Kəlbəcər, Şuşa dərdinə.
Beləcə Şamili yıxdı haqsızlıq,
Yaxşı hiss edirdim onun dərdi nə...

Rahat yat Dəlidağ, bu ağır dərddi,
Onu başa düşən, qananlar bilir.
Xalqının yolunda yanmaq hünərdi,
Bu hünərdə olub, yananlar bilir.

Getməyinə hələ inanmıram mən,
İnana bilmirəm Dəlidağ durur.
Şamili uca tut, ay gözəl Vətən,
Şamil yaşayacaq əbədi, məğrur.

20 may 2005



**AHMEDE HEPO,**
nivîskarê Kurd,
Endanê Yekîtîya
Nivîskare Azerbaycanê

Dîbên, zimanê zarokan vebûnê dibêjin:
-Dayê!
Lê Şamîlê tifal gotîye:
- Kurdim!

Dê jî bersivê dide:
-Ere, lawo tu kurdî,
Bê dewletî, bi derdî.
Rojên dijwar me pirr dît,
Vê dewranê, vî erdî.

Şamîlê Selîm salên dirêj dilok-beytên dîya xwe Gulgeza Xalîl hîm bi azerbaycanî, hîm bî kurdî gotî, nivîseye û sala 2001 pirtûkekê dide weşandinê. Wêda dinivîse, wekî bavê mîn jî, dîya min jî, dê-bavên wan jî kurd bûnê.

Hê zarotîyêda dayîka şîrhelal, bavê kedkar nava ruhê wîda kurd hizî pêşta anî bûn. Lêma jîyana xweda di alîyê kurdzanîyêda cercirî.

Beqî Şamîlê Selîm Azerbaycanêda him Kurd hate naskirînê, hîm jî kurzanî hate xemilandînê. Ewî poyê- ma Ehmedê Xanî «Mem û Zîn » wergerandê zîmanê Azerbaycanî û bi wê yekêva careke mayîn helbestvanê gelê kurd, yê nemirîra peykel danî!

Lêkolînên wîye ser pirtûka «Kurd li Azerbaycanê» destûrê didin bejîn, wekî Şamîlê Selim Xwedanê hîşsewakî kûrî-zelal bûye, zehmet kêşekî ne wastîyayî bûye.



## İLYAS TAPDIQ

## DƏLİDAĞ OLDUĞUNU BİLİRDİK

Əzizim Şamil, qəfil ağır xəbərindən elə sarsılmışam ki, məzarın başında nə deyəcəyimi bilmirdim. Bu dəhşətli, bütün vücudumu buz nəfəsi ilə titrədən kədərin caynaqlarından özümü xilas edib, səninlə ilk tanış olduğum günləri – 1955-56-cı illəri xatırlamağa çalışıram. O zaman dostun Zeynal Məmmədovla indiki İstiqlaliyyət küçəsində görüşdük. Sabirin heykəlinin yanındakı oturacaqlarda əyləşib söhbət etdik. Bizə oxuduğun şerləri xatırladım – «Bəsimdi» və «Çəkər». Hər iki şerindən yadımda qalan misraları xatırladım.

**Gözəl, hüsnündəki o gözəlliyə,**
**Baxsa gül-çiçək də xəcalət çəkər.**
**Bəs onda de görüm, bu yazıq canım,**
**Mən sənə baxanda nə halət çəkər?**

**...Amandı Şamili eyləmə zayıl,**
**Gözün can almağa hamıdan qayıl.**
**Mən də canalanam deyən Əzrayıl,**
**Bircə baxışından xəcalət çəkər.**

Mənə birdən elə gəldi ki, 50 il xəcalət çəkib kənar gəzən Əzrayıl axır ki, səndən hayfını aldı. Bəlkə də o misraları yazmasaydın sən pəhləvan sağlamlığınla yüz yaşın əlin sığacaqdın!..

Əzizim Şamil, sənin həyatdan, yaradıcılıqdan belə tez ayrılmağın bu gün Kəlbəcər itkisi kimi ağırdır!

Kəlbəcəri geri qaytarmağa gümanımız var. Ancaq biz Şamili geri qaytara bilməyəcəyik! Buna görə sənin ağır kədərin məni belə dərindən sarsıtdı.

Bu ağır düşüncədən yenə özümü bir təhər çıxarıb «Bəsimdi» şerindəki aşağıdakı bəndi xatırladım:

**Dost seçmişəm mən özümə zəhməti,**
**Yurdümüzün boldu varı-neməti.**
**İstəmirəm haram malı, dövləti,**
**El-obanın məhəbbəti bəsimdi!**

Şamil, sən xalqımız, Vətənimiz, doğma Azərbaycanımız üçün şair kimi, alim kimi, tədqiqatçı kimi, dilçi, riyaziyyatçı, mütərcim kimi çox iş gördün. Folklorumuzun tədqiqatı üçün də əzəmətli zəhmətin heç vaxt unudulmayacaq! Biz sənin vaxtsız itkini çəkdiyin böyük zəhmətlə, el məhəbbəti ilə xatırlayaraq təskinlik tapacağıq!

Səni el-obanın, dostlarının, övladlarının böyük məhəbbətilə xatırlayıb qəlbimizdə yaşadacağıq.

**Baxışa sığışmır axar-baxarı,**
**Yayın yaxasından düşmür baharı.**
**Ağarır köksündə min ilin qarı –**
**Dəlidağ vüqarı Kəlbəcərdədir!**

Şamil, biz sənə elə-belə Dəlidağ demirdik, deyəcəyik. Dəlidağ olduğunu bilirdik!

20.Y. 2005.



## BAYRAM QƏMXAR

**ŞAMİL DƏLİDAĞDI, DƏLİDAĞ ŞAMİL**

Şamil-Dəlidağdı, Dəlidağ-Şamil,
Yağılar gözünə çəkdi neçə mil.
Artdı şan-şöhrəti, artdı ilbəil,
Dağlartək ucaldı Şamil Dəlidağ.

Çöx sevdi o, böyük Əhməd Xanini,
Tərcümə eylədi, «Mən və Zin»ini.
Oda-alovlara atdı canını,
Əğyardan «bac» aldı Şamil Dəlidağ.

Bir zaman namərdlər ona tor qurdu,
Arxa, həyan oldu öz doğma yurdu.
Əymədi qəddini, kişitək durdu,
Düşməndən öc aldı Şamil Dəlidağ.

Neçə min cinasdan luğət yaratdı,
Kəlbəcər verildi, dərdi boy atdı.
Bu ayrılıq ürəyini qanatdı,
Aləmə səs saldı Şamil Dəlidağ.

Qaldı erməniyə dövləti-varı,
Qızıldan qiymətli min kitabları.
Kükrəyən qəlbinin soldu baharı,
Heyif, tez qocaldı Şamil Dəlidağ.

Yox, dağlar qocalar, Şamil qocalmaz,
Dəlidağ kiçilər, Şamil kiçilməz.
Qranit qayadı heç vaxt keçilməz,
Qəlblərdə yurd saldı Şamil Dəlidağ.

**Ji gellek welatan ser nave malbeta Şamîlê Selîm têlêgramên serxweşîyê hatine stendinê. Jêrê yekê ji wan didin û navên wan kesa jî dikişînin yên ku, bûne şirîkê şîna mamosteyê mezin.**




Şamîl Eskerov (rûniştî) û ji milê çepê ve: Rohat Alakom, Michael Chyet, Joyce Blaû û Kemal Mezher Ehmed (Foto ji arşîva Rohat Alakomî)

STOCKHOLM, 22/5 2005 — Helbestvan û zimanzanê kurdê ji Azerbaycanê Şamîl Eskerov di temenê xwe yê 76-salî de çû ser heqîya xwe. Dost û hevalên wî bi dil kovîya mirina wira girêdayî daxuyaniyek belav kirine û tê de behsa jiyan û hinera wî dikin.

Knyaz Mirzeyev: Akademisyen, profesorê filologiye û serokê yekitiya kurdên Qazakistanê.
Nadir Nadirov: Akademisyen, profesorê petro-kimyayê.
Şekroyê Mihoî, doktor-professorê dîrokî
Şêx Remezan. Serokê yekitiya Kirgizistanê.
Bariyê Bala:Şaîr
Ehmedê Hepo: Nivîskar
Mihemedê Misto: Profesor
Bariyê Paşa: Albay
Wezork Knyaz: Dozger
Resıl Memedov: Doktor
Ezozk Ziyo Eliyev: Bazirgan
Hiseyin Sadikov. Profesork matematokk.
Hesen Heco Silkman: Nivoskar
Xebatkarkn rojnameya Dengk Kurd.
Xebatkarkn rojnameya Jiyana Kurd ı kovara Nıbar.



AZƏR GÜLƏLİYEV,
Laçın rayonunun Şeylanlı kəndi

## VƏTƏNDƏ VƏTƏNSİZ KÖÇDÜ DƏLİDAĞ

Bu şeri xalqımızın tanınmış ağsaqqalı, alim və təkrarsız şairi Şamil Dəlidağın ölümünə həsr edirəm.

Ellərə yayılır ağır bir xəbər,
Vətəndə vətənsiz köçdü Dəlidağ!
Dəlidağ qarından qar arzuladı,
Girov vətəninə yetmədi sorağ,
Vətəndə vətənsiz köçdü Dəlidağ!

Ürək dözərdimi bu qədər qəmə?
Gözlər yol çəkdikcə büründü nəmə,
Dünyamız boşaldı söz deyək kimə,
Yenə yaradırdı yurdundan qırağ,
Vətəndə vətənsiz köçdü Dəlidağ!

Zaman yetirərmi Şamil tək şair,
Gül-çiçək açırdı qəlbində şeir,
Azəri hicranlar eylədi əsir,
Bizə arxaydı, möhtəşəm dayağ,



KAMİL HƏSƏNOV,
"RONAHİ" Kürd Mədəniyyət Mərkəzinin sədri

Xatiri və xatirəsi bizim üçün həmişə əziz olan Şamil Əsgərovun özündən sonrakı nəsillərə örnək olacaq aşağıdakı insani keyfiyyətlərinin təkrar-təkrar şahidi olmuşam: Həddindən artıq sadəlik və mehribanlığının, böyük təşkilatçılıq və işgüzarlığının, səmimilik və qayğıkeşliyinin, xüsusi yaradıcılıq qabiliyyəti, ensiklopedik biliyə malik olduğunun, doğma Azərbaycanımıza qırılmaz tellərlə bağlı olduğunun... Öz əslini danmamasının, iki ananın-Kürdün və Azərbaycanın oğlu olduğunu əməli işlərilə sübuta yetirdiyinin...

Şamil müəllim haqqında keçmiş zamanda danışmaq mümkün olmasa da, "ölüm haqdır, çıxmaq olmur əmrdən..."

Ulu tanrıdan Şamil müəllimə qəni-qəni rəhmət diləyir, onun övladlarına, qohumlarına, yaxın dostlarına səbr, dözüm arzulayır, məzarın nurla dolsun-deyirəm.

## DAĞLAR DA AĞLAYIR

Kəlbəcər, Dəlidağ neçə vaxtdır qəmgindir, ağlayır. Ona görə ki, yetişdirdiyi övladları onlarla görüşə bilmirlər, dərdlərini deyə bilmirlər. Dəlidağın yetişdirməsi, dağ vüqarlı, dağlar oğlu, Azərbaycanın məşhur şairi, ədəbiyyatşünası Dədə Şamil Kəlbəcərin, Dəlidağın intizarını, qəmini, qüssəsini sanki ürəyində daşıyırdı. Bu ağır qəmə, qüssəyə Dədə Şamilin ürəyi dözmədi. Dəlidağla görüşə bilmədi. 20.V.2005-ci ildə Dəlidağ, Kəlbəcər intizarı ilə dünyasını dəyişdi. Onun ürəyinin istəyi, hərarəti yenə də bizim hamımızı Dəlidağın harayına çağırırdı. Hamımız qəmgin, acı göz yaşları axıdırdıq.

Mən dözə bilmədim. Dədə Şamilin istirahət və iş otağına ürək yanğısı, ürək intizarı ilə baş çəkib hönkür-hönkür ağladım. Dədə Şamili səsimə səs verməsi üçün haraylayıb çağırdım. Dədə Şamil səsinə səs vermədi. Lakin qəlbən mənə dedi:

**Gəl yanıma, gələndə ağlama**
**Yanıma gələndə gül, - dedi.**
**Əlini mənə uzadıb gəl dedi.**
**Dəlidağı mənsiz görəndə**
**Ağlama, gül, - dedi.**

**Mehdi Qurbanov,**
Azərbaycan Tibb Universitetinin dossenti, respublikanın ali dərəcəli həkimi Dədə Şamilin yaxın sirdaşı

Şamil Əsgərovun vəfatı xəbəri ilə bağlı dünyanın 50-dan artıq mətbuu orqanında bu ağır itkidən kədər hissləri ifadə olunmuş, böyük şəxsiyyətin vəfatı ilə əlaqədər müxtəlif nekroloqlar və başsağlığı dərc olunmuşdur.

Azərbaycanın demək olar ki, bütün bölgələrindən göndərilən teleqrammalarda, dünyanın müxtəlif yerlərindən edilən telefon zənglərində, internet saytlarında bu itki ilə bağlı kədərini bildirənlərin sayı yüzlərlədir.

Kədər hissləri ifadə olunmuş teleqramalardan biri:

**Xalqımızın qeyrətli oğlu Şamil Əsgər Dəlidağın ailəsinə, əziz qohumlarına Tovuzlular adından dərin hüznlə başsağlığı verir, onun ruhu qarşısında daim baş əyirik. Möcüzələr dünyası olan Şamil müəllimin əziz xatirəsi onu sevənlərin qəlbində əbədi yaşayacaqdır.**

Quliyev Ələddin Abdulkərim oğlu,
Tovuz rayonu

Serbestî û Azayî Roja Geşe! Koletî û Bindestî Roja Reşe!

# DENGÊ KURD

NAVENDA ÇANDA KURD "RONAHÎ"

## ŞAMİL DƏLİDAĞIN NƏSİHƏTLİ KƏLAMLARINDAN...

**ALLAHIN QOYDUĞU YOL İLƏ GEDİN,
QURAN DEDİYİNƏ TAM ƏMƏL EDİN.**







**VAXTDAN QİYMƏTLİ ŞEY YOXDUR DÜNYADA,
BİRCƏ ANINI DI VERMƏYİN BADA.**







**HƏMİŞƏ BİR-BİRƏ MEHRİBAN OLUN,
EL-OBA GÖZÜNDƏ MƏRD İNSAN OLUN.**







**SADİQ DOST QAZANIN HƏYATDA HƏR AN,
SADİQ DOSTU YOXSA BƏDBƏXTDİR İNSAN.**







**HƏMİŞƏ EYLƏYİN XALQA XİDMƏTİ,
BUNU UNUTMAYIN BİRCƏ AN QƏTİ.**







**VƏTƏNDİR İNSANA ƏN ƏZİZ ANA,
LAZIM GƏLSƏ CAN DA QIYINIZ ONA.**







**XƏBİSLƏR KÖLGƏMƏ GƏLƏNDƏ HƏDƏ,
ÖYÜNÜÖ FƏXR ETDİM KÜRDLÜYÜMLƏ DƏ.**






**YAXŞILIQ EYLƏYİN DÖNÜN ƏLACA,
BELƏ YOLLA OLAR BAŞINIZ UCA.**







**VALİDEYNİ SANIN HƏR VAXT QİBLƏGAH.
ONDA ALLAH SİZİ SEVƏR, İNŞALLAH.**







Rêdaktorê sereke:
Ahmedê Hepo

Bêrpirsîyarê beşa azerbaycanî:
Murvet Qedimoxlû

Endamên rêdaksîyayê:
Kamilê Ekber
Arîf Şamo
Baxış Hûsêynov

Yûnîs Abdullayêv
Bayramê Fetî
Refayîlê Celîl
Akîf Hesenzade

Destûrname № 88

Qəzet "KMM-nin kompüter mərkəzində yığılıb səhifələnmişdir.

NAVENDA ÇANDA KURD

KÜRD MƏDƏNİYYƏT MƏRKƏZİ